*AMEA Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutu*
*Azərbaycan ədəbiyyatşünaslığı, 2024, № 3* *ISSN: 2663-4406*
*Səhifə: 24-29* *E-ISSN: 2709-2699*
*http://dx.doi.org/10.59849/2663-4406.2024.3.24*

# Füzulinin "Mətlə-ül-Etiqad" fəlsəfi traktatı

**Fəridə Əzizova**
Filologiya elmləri doktoru
AMEA Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutu
E-mail: faridazizova@gmail.com

**Annotasiya.** Bu məqalədə şairin ərəbcə yazılmış "Mətlə-ül-Etiqad" fəlsəfi traktatına əsasən, sənətkar Füzulinin mütəfəkkir Füzuli kimi formalaşması, təşəkkülü və təkamülündə antik Ellin mədəniyyətinin, Fales, Sokrat, Empedokl, Anaksaqor, Heraklit, Pifaqor, Demokrit, Aristotel, Prokl kimi yaradıcıları, Əl-Fərabi, İbn-Sina, İmam Qəzəli, Nəsirəddin Tusi kimi İslam Şərqi alimlərinin dayaq nöqtələri kimi mövqeyi açıqlanır. Sürəkli zaman dönəmlərində ərsəyə çıxan bir-birindən fərqli elmi-fəlsəfi problemlərin və dini etiqad və məramların – atəşpərəstlik, zərdüştilik, məzdəkilik və s. kimi ideoloji təsisat və axınların, musəvilik, isəvilik və nəsranilik, islam və islami təmayül və cərəyanların aləmin mənşəyi, kainat, yaradılış, ülvi və sufi varlıqlar, aləm və zaman nisbəti, ilk təkan, ruh və cisim, xaliq və məxluq və s. haqqında düşüncə və baxışlarına şairin mütəfəkkir-mövlana-filosof münasibəti aydınlaşdırılır, müxtəlif ilahiyyatçı alim və filosofların idrak nəzəriyyəsi ilə bağlı fikirlərinin Füzuli şərhi verilir. Eyni zamanda, Füzuli irsində xeyir və şər, iradə, qəzavü qədər, təqdir kimi fəlsəfi-irfani-etik problemlərin yönümü işıqlandırılır, təsəvvüf dünya duyumunun başlıca əsaslarının təhlil və açımı da bu tədqiqatda geniş şəkildə əksini tapmışdır.
**Açar sözlər**: alim, filosof, dünya, idrak, kainat, irs

**Məqalə tarixçəsi:** göndərilib – 13.11.2024; qəbul edilib – 27.11.2024

# Fuzuli's philosophical treatise "Matla-ul-Etiqad"

**Farida Azizova**
Doctor of Philological Sciences
Institute of Literature named after Nizami Ganjavi of ANAS
E-mail: faridazizova@gmail.com

**Abstract.** In this article, the author examines the development and evolution of Mahammad Fuzuli as a thinker. This complex process highlights the contributions of ancient philosophers and scientists, including Thales, Socrates, Empedocles, Anaxagoras, Heraclitus, Pythagoras, Democritus, Aristotle, and Plato, as well as notable scholars from the Islamic East such as Al-Farabi, Ibn-Sina, Imam Ghazali, and Nasir al-Din Tusi. These figures serve as foundational influences in the formation and evolution of Fuzuli's philosophical thought. The author explores Fizuli's attitude towads the judgments of ideologists and theologians of various teachings – Mazdaism, Zoroastrianism, fire worship, as well as the views of representatives of such traditions as Judaism, Christianity, and Islam with its numerous branches on issues of creation, the cosmogony of the universe, spirit and flesh, the Creator and His creations. The work highlights philosophical

and ethical problems in Fizuli's own legacy, such as good, evil, will, predestination, and provides the foundations of Sufi worldview.
**Keywords:** scholar, philosopher, world, knowledge, universe, legacy

**Article history:** received – 13.11.2024; accepted − 27.11.2024

## Giriş / *Introduction*

Dahi şair-mütəfəkkir M.Füzulinin yaradıcılığı, bir qayda olaraq, əsasən, birtərəfli – korifey-şair nöqteyi-nəzərindən araşdırılıb öyrənilsə də, az öyrənilmiş, yaxud heç öyrənilməmiş problemlər, o cümlədən şairin görkəmli alim olması məsələsi diqqətdən kənarda qalmışdır. Bu mürəkkəb prosesdə bəşəri təfəkkür və idrakın böyük tarixi inkişaf yolu, o yolun üstündəki dönüş nöqtələri, dayaq məntəqələri, əsası Antik dövrün Fales, Sokrat, Empidokl, Anaksaqor, Heraklit, Pifaqor, Demokrit, Aristotel, Platon kimi elm və mədəniyyət xadimləri, müsəlman Şərqində əl-Fərabi, İbn-Sina, İmam Qəzali, Nəsirəddin Tusi kimi alimlər tərəfindən qoyulan mərhələləri görünür. Şair-mütəfəkkirin əsərlərinə yalnız bu fonda, bu prizmadan baxdıqda onun elmi-fəlsəfi problemlərə, İslam, zərdüştilik, yəhudilik, məzdəkilik, xristianlıq və manilikdəki dini təlim, məzhəb və cərəyanlara münasibətini, həmçinin bu din və təriqətlərlə bağlı təsəvvürlərini öyrənmək olar.

## Əsas hissə / *Main part*

Fəlsəfə və dini dünya görüşlərindəki təzad və fikir ayrılıqlarını öyrənən şair-mütəfəkkir "Mətlə-ül-Etiqad" risaləsində öz mühakimələrini qurur, kainatın kosmoqoniyası, dünyanın xilqəti, ilahi varlıqlar, zaman və məkan, cisim və can, Xaliq, onun məxluqatı və digər məsələlər barədə məlumat verməyə və onlar haqqında həqiqətlərə aydınlıq gətirməyə çalışır. Əsərdə müxtəlif ilahiyyatçıların mülahizələri izah edilir, fəlsəfi və etik problemlərin müxtəlif aspektləri işıqlandırılır, Füzulinin "Xeyir" və "Şər", fərdi iradə və ilahi qədər kimi anlayışlara şəxsi münasibəti verilir. Müəllif Yaradandan öz əsərinə uğur dilədiyi qısa ənənəvi müqəddimədən sonra öz əsərini dörd bölməyə ayırır: "Elmin idrakı və idrakın elminə dair", "Aləmin hallarının idrakına dair", "Zəruri varlığın idrakına dair", "Peyğəmbərlik və onunla bağlı məsələlərin idrakına dair". Birinci hissənin dörd fəsli bu və ya digər fəlsəfi cərəyanlara başçılıq edən müxtəlif mütəfəkkirlərin dünyanın yaranması ilə bağlı baxışlarını əks etdirir. Birinci hissənin ilk fəsli idrak və biliyin (elmin) mahiyyəti, ikinci fəsli onların zəruriliyi, üçüncü fəsli onların növləri, dördüncü fəsli isə onların dərk edilməsi yolları haqqındadır. Füzuli mütəkəllimlərə, qədərilərə, salehilərə, cəbərilərə, cəhimilərə, əşərilərə, mötəzililərə, işraqiyyə cərəyanının nümayəndələrinə, sufilərə və digərlərinə istinad edərək müxtəlif mütəfəkkirlərin, ilahiyyatçı alimlərin idrak və bilik haqqında görüşlərinin əsas tezislərinin xülasəsini verir. Mötəzililiyin təməl ehkamları bütün ərəb-müsəlman fəlsəfəsində daha dərin teoloji və fəlsəfi baxışlar üçün təkan və çıxış nöqtəsi olub, Şərq və Qərb fəlsəfəçilik modelinin sintezinin həlledici təsiri ilə ərsəyə gələn qeyri-ənənəvi ehkamların inkişaf istiqamətlərini müəyyən edən oriyentir rolunu oynayıb. Müsəlman Şərqi X əsrdən başlayaraq kütlələrin şüurunu fəth etməyə və hər biri öz təliminin yeganə düzgün yol olduğunu sübut etməyə çalışan müxtəlif cərəyan və məktəblərin təmsilçilərinin ideoloji mübarizəsinə səhnə olub. Bu mübarizə yüzillər boyunca səngiməyib, ərəb-müsəlman teoloji dünyagörüşündə öz aktuallığını itirməyib. Bəlkə də elə həmin arasıkəsilməz ideoloji ixtilaf və çəkişmə prosesi dahi şair və alim Füzulinin bu əsərinin, həmçinin bu qəbildən olan digər əsərlərin ərsəyə gəlməsinə zəmin yaradıb. Füzulinin "Mətlə-ül-Etiqad" risaləsi ən erkən doksoqrafik əsərlərdən olsa da, onların birincisi deyil. Bu qəbildən olan ilk əhəmiyyətli əsər yunan müəlliflərin əsərlərini ərəb dilinə tərcümə etmiş bağdadlı şiə ilahiyyatçısı və

natiqi Əbu Məhəmməd əl-Həsən ibn-Musa ən-Nobəxtinin (vəfat ili – 912) “Kitab əl-ara və-d-diyanat” (“Baxış və etiqadlar kitabı”) əsəri olub.

Ən-Nobəxtidən sonra ərəb ilahiyyatçıları mühitində həmin mövzuya müraciət edən alimlərin arasında ən çox seçiləni “Kitab əl-miləl və-n-nihəl” əsərinin müəllifi Əbdülqahir ibn-Tahir əl-Bağdadi (980-1037) və öz əsərlərinə eyni adı qoymuş daha iki nəfər – zahiri məzhəbinin nümayəndəsi, əndəluslu sünni ilahiyyatçısı İbn-Həzm (994-1064) və məşhur Xorasan ilahiyyatçısı, fəqih Məhəmməd ibn-Əbdülkərim əş-Şəhristanidir (1075-1153). Din tarixi elmi sonrakı əsrlərdə də islam tarixşünaslığında mühüm yer tutmaqda davam edib. Bu dövrdə həmin mövzuda qələmə alınan əsərlər arasında XV əsr Yəmən alimi əl-Fəxrinin əl-Yəməndə (Yəməndə) yazdığı “Kitab təlxis əl-bəyan” əsəri xüsusi seçilir. Füzuli öz əsərində Orta əsrlərdə Yaxın və Orta Şərqdə mövcud olan fəlsəfi və dini ontoloji nəzəriyyə və cərəyanların təsnifatını verir. Onun təsnifatı xüsusi maraq doğurur, çünki həm o dövrdə hansı ideoloji cərəyanların yarandığını, həm Füzulinin onlara münasibətini, beləliklə də dahi şairin dünyagörüşünü öyrənməyə imkan verir. “Mətlə-ül-Etiqad” islam dünyasının müxtəlif cərəyan və məzhəblərinin əsas ehkamlarının təsvirində digər doksoqrafik əsərlərdən öz qərəzsizliyi, obyektivliyi ilə fərqlənir. Müəllif təsvir etdiyi hadisələrə sanki kənardan baxır. Füzuli islam tarixinin ayrı-ayrı hadisələrini işıqlandırarkən müsəlman alimlərinin çoxuna xas olan təəssübkeşliyə, yaxud qərəzə yol vermir, bitərəfliyini qoruyur. İslamın erkən dövrlərində yaşamış alimlər bir çox dini ehkamların filosofların baxışlarına zidd olduğunu anlamışdılar və dinin əsas doqmalarına qarşı yönələ biləsi etiqadları inkar etməyə hesablanan hökmlər ortaya atmışdılar. Fəlsəfə tarixi elmində “kəlam” kimi məşhur olan dini sistem də belə fəlsəfi cərəyanlardan idi. Kəlam dəyişikliyin mümkünlüyünü yalnız ortodoksal islam çərçivəsində qəbul edirdi. O, islam ehkamları çərçivəsindən azacıq çıxmağı onun təməl prinsiplərinin pozulması kimi dəyərləndirirdi. Ərəblərin dini dünyagörüşü sistemini yenidən qurmaq, təkmilləşdirmək ideyasını irəli sürən dünyəvi fəlsəfələr də inkişaf etməkdə idi. Kəlam ideoloqlarının əsas hədəflərindən biri də bu cür dini-fəlsəfi meyillər idi. Onlar idrakı yeganə bilik mənbəyi kimi qəbul edən mötəzililiyi, onunla birlikdə yunan fəlsəfəsini, xüsusən də aristotelizmi gözdən salmağa çalışırdılar. Amma bu çəkişməni müşayiət edən daha bir proses vardı, onun tarixi daha erkən dövrlərə – ərəblərin tərcümə vasitəsilə Ellin fəlsəfəsi ilə, Platonun, Aristotelin irsi ilə tanış olduqları, Hippokrat, Qalen, Evklid, Arximed, Ptolomey və bir çox digər mütəfəkkirlərin ərəbcə “danışdıqları” vaxtlara gedib çıxırdı. Sonralar yunan fəlsəfəsi ilə tanışlıq islamın əsas ehkamlarının təfsirinə bir qədər azadfikirlilik gətirməyə başladı, müxtəlif cərəyanların fəlsəfi görüşlərində “şübhəli təfsirlər”, məsələn, Quranın əzəliliyinin inkar edilməsi, onun sonradan yaradılmasının təqdim edilməsi, Allahın antropomorf varlıq kimi təsvir edilməsi, insanın fərdi iradəsi amilinin qabardılması halları yarandı, möminlərin Allaha inanıb peyğəmbəri tanımamasının, namazdan, digər vacibatlardan imtina etməsinin mümkünlüyü ideyası yayıldı. Bu da islam fəlsəfəsində rasionalizmin genişlənməsinə gətirib çıxartdı və zəkanı həqiqətin yeganə meyarı sayan müxtəlif cərəyan və təriqətlər bu ideyanı dərhal əxz etdilər. Yeni fəlsəfi görüşlərin yaranmasına şiə müsəlmanlar da öz töhfələrini verdilər. Məlum olduğu kimi, şiələr öz dini ayinlərindən, ritual və kultlarından daha çox, islamın fəlsəfi baxımdan dərk edilməsi ənənələrinə görə seçilirdilər. Şiəlik müxtəlif mifoloji ünsürləri, etiqadları, o cümlədən islamaqədərki dini dünyagörüşü ənənələrini əxz etmiş, bununla ənənəvi ərəb islamına meydan oxumuşdu.

Şərq mütəfəkkirlərinin yunan fəlsəfəsinə marağı Harun ər-Rəşidin (vəfat ili – 809) hakimiyyəti zamanı geniş vüsət alan tərcümə hərəkatı dövründə, həmçinin onun oğlu Abdulla əl-Məmunun Bağdadda yaratdığı “Hikmət evi” [2, s.126-143] akademiyasının fəaliyyəti illərində daha aydın hiss edilir, hərçənd hələ əmir Xalid ibn-Yəzidin (vəfat ili – 708 və ya 709) sağlığında Aristotelin “Orqanon”unun ayrı-ayrı fəsilləri, Abbasi xəlifəsi Əbu-Cəfər Abdullah İbn-Məhəmməd əl-Mənsurun hakimiyyəti dövründə (754–775-ci illər) isə Porfirinin “Giriş”i, Ptolomey və Evklidin əsas əsərləri ərəb dilinə tərcümə edilmişdi. Aristoteldən başqa, digər yunan filosoflarının, məsələn,

Afrodisiyalı Aleksandrın və başqa mütəfəkkirlərin əsərləri də ərəbcəyə çevrilmişdi. Özü də bu alimləri tərcümə edənlər heç də ərəblər deyildi, müxtəlif dinlərə, təriqətlərə mənsub olan adamlar – xristianlar, səbailər, məzdəkilər, yəhudilər, brəhmənlər, buddistlər, zərdüştilər və digərləri idi. Bu işə ən çox töhfə verənlər isə Suriya nəsturiləri idi, çünki ərəb istilasına qədər Antioxiya və İsgəndəriyyənin fəlsəfə məktəbləri məhz Suriya və Mesopotamiyada yerləşirdi.

Füzuli öz fəlsəfi əsərinin beş fəsildən ibarət olan və "Aləmin hallarının idrakına dair" [1, s.23] adlanan ikinci bölümündə müasirlərini maarifləndirməyə çalışır, demək olar, bütün məşhur mütəfəkkirlər haqqında, təkcə islam mədəniyyətinin nümayəndələri deyil, həm də Antik dövr ustadları, onların təlimlərinin mahiyyəti barədə yığcam məlumatlar verərək oxucularının biliklərini genişləndirir. Bu bölmənin "Aləmin başlanğıcına dair" adlanan birinci fəslində bir çox dahi mütəfəkkirlərin adları çəkilir. Diqqəti ən çox cəlb edən məqam Füzulinin istənilən dünyagörüşünə eyni dərəcədə bitərəf yanaşmasıdır. O, qeyri-müsəlman ideoloji qruplarının islam ilə təzadda olmasına rəğmən onların heç birinə qərəzli münasibət bəsləmir. Füzuli bütün obyektiv varlığı iki yerə bölür. Birincisi, zəruri, mütləq varlıqdır, yəni öz varlığında səbəbə ehtiyacı olmayan varlıqdır, daha dəqiq desək, Allahdır. İkincisi isə mümkün, dəyişən varlıqdır, yəni dünyadır. Müəllif varlığın iki növünü bir-biri ilə müqayisə edərək bu qərara gəlir ki, zəruri varlıq zəka ilə dərk edilir, dünya isə zaman içrə yaranan hisslərlə duyulur. Bu isə ümumilikdə müsəlman ilahiyyatçılarının fikirlərinin təsdiqi idi. Lakin Füzuli öz əsərində onun görüşləri ilə təzad təşkil edən yad fikirlərə hörmətlə yanaşır, məşhur mütəfəkkirlərin fərqli konsepsiyalarına yer verməkdən çəkinmir, sanki onu əhatə edən mühitdə, etnik və dini mənsubiyyət baxımından rəngarəng cəmiyyətdə yaşayan insanlara islamla ziddiyyət təşkil edən inanclara – digər dinlərin ehkamlarına, islamın müxtəlif təriqət və məzhəblərinin inanclarını, digər dini təlimlərin əqidələrini qəbul etmiş insanlara xoş məram göstərməyi, onlara dözümlə yanaşmağı öyrədir.

Universal biliklərə malik olan ustad filosof Füzuli elmin bir çox sahələri ilə dərindən tanışlığını nümayiş etdirərək öz dövrünün təsdiqlənmiş elmi faktlarını öz ədəbi irsinə, ölməz bədii əsərlərinə ustalıqla daxil etməyi bacarıb, "Mətlə-ül-Etiqad" fəlsəfi əsəri isə bunun bariz nümunəsi sayıla bilər. Əsərin ikinci bölməsinin ikinci fəslində müəllifin kainat, ulduzlar, planetlər, minerallar, bitki və heyvanlar aləmi ilə bağlı fikirləri yer alır – onun maraq dairəsi, doğrudan da, sonsuzdur [1, s.27]. Ərəb dünyası artıq təbiətşünaslıq elmi ilə tanış idi. Hələ xəlifə Mənsur məşhur təbib Georq Boxtişunu Qondişapurdan* Bağdada dəvət etmişdi. Boxtişu isə öz tələbələri və övladlarının köməyi ilə Bağdadda böyük tibb məktəbi yaratmışdı, həmçinin orada Qalenin əsərlərinin nəşrinə başlamışdı. Elə həmin mühitdə, həmin dövrdə bağdadlı alim İbrahim əl-Fəzari "Sidhanta" kimi məşhur olan hind astronomik əsərini tərcümə etdi və bu hadisə astronomiya elminin inkişafında əvəzsiz rol oynadı. Əhvazlı (İran) Nobəxt və Əbu-Səhl İbn-Nobəxt də astronomiyaya dair bir neçə əsəri orta fars dilindən ərəbcəyə çevirmişdilər. Bu sahədə görülən işlərdən bağdadlı münəccim əl-Bəttaninin (847-929) əsərlərini xüsusi qeyd etmək olar. O, bir neçə mühüm orijinal nəzəriyyələr yaradıb, astronomiyaya dair parlaq araşdırmalar ərsəyə gətirib. Qusta ibn-Luqa əl-Bəlbəki "Göy kürəsi haqqında kitab", Bağdad rəsədxanasının rəhbəri Sabit ibn-Qürrə əl-Hərrani isə "Günəş ili haqqında kitab" və "Günəşin hərəkəti haqqında" əsərlərini yazıblar. "Mətlə-ül-Etiqad"dan göründüyü kimi, Füzuli öz əsərində yer verdiyi bu və ya digər elm sahəsinin ən xırda nüanslarını peşəkar səviyyədə öyrənməkdən ötrü bu əsərləri kamil tədqiqatçı marağı ilə araşdırıb və risaləsinə professional yanaşmışdır. O, əsərinin üçüncü bölməsinin ikinci fəslində mexanika, coğrafiya, musiqi, optika, tibb, süxurşünaslıq kimi geniş sahələr üzrə dahiyanə əsərləri ilə məşhur olan XIII əsr riyaziyyatçı və astronomu Nəsirəddin Əbu-Cəfər Məhəmməd ibn-Məhəmməd ət-Tusini (1201-1274) [3] də yad edib. O öz əsərində Tusinin ədədlərlə bağlı geniş rasional və irrasional

* Sasani imperiyasının ən böyük elm mərkəzlərindən olan Qondişapur Akademiyası nəzərdə tutulur.

təsəvvürlərinə də toxunur. Ustad Tusi hesab edirdi ki... “hər hansı ədəd əgər müəyyəndirsə, onun müəyyənliyində sonu da vardır” [1, s.27].

Beləliklə, Füzulinin “Mətlə-ül-Etiqad” əsərində ən qədim zamanlardan ta şairin yaşadığı dövrə qədər, bütpərəstlikdən zərdüştiliyə, yəhudilikdən xristianlığa, islam və onun məzhəblərinə qədər böyük zaman kəsiyində ideoloji cərəyanların, inancların, dinlərin, ehkamların müxtəlif problemləri, dünyanın yaranması, insan, onun bu dünyadakı rolu, vəzifəsi, həyat və ölüm ilə bağlı baxışlar, mühakimələr bu və ya digər dərəcədə əks olunub və onların fərdi yozumu verilib. “Mətlə-ül-Etiqad” Füzulinin izləyib araşdırdığı ideoloji təlimlərin bir növ panoramıdır, ümumi mənzərəsidir, o bizə Orta əsrlər ərəb-müsəlman fəlsəfəsindəki Antik dövr filosoflarının ideoloji irsini aydın göstərir. Elmi əsərin mühüm cəhətlərindən biri ondan ibarətdir ki, burada islamın mötəzili, şiə, sünni və digər məzhəblərinin tərifi verilir, onların yaradılmasında əhəmiyyətli rol oynamış şəxsiyyətlər haqqında məlumat verilir, həmçinin islamaqədərki dövr izlənilir. Bu əsəri oxuyanda Orta əsrlərdə Yaxın Şərqdə mövcud olmuş bir çox ideoloji cərəyanlar adamın gözləri qarşısından keçir. Dahi mütəfəkkir “Mətlə-ül-Etiqad”da müxtəlif təriqət və cərəyanlara öz münasibətini də bildirir və bu onun özünün dünyagörüşünə də bir işıq salır. “Mətlə-ül-Etiqad” Yaxın Şərqdə bir çox dini cərəyanları təkcə ərəb-müsəlman fəlsəfəsinin deyil, həm də Antik dövr mütəfəkkirlərinin fəlsəfi baxışlarını əks etdirən ideoloji təlimləri nəzərdən keçirməyə imkan verir, özlüyündə fəlsəfə tarixinə dair bir məxəzdir və heç şübhəsiz, bu, əsərin qiymətini daha da artırır. Əsərin daha bir diqqətəlayiq cəhəti var. O, ilk baxışdan ilahiyyat mövzulu əsərə oxşayır, həmin dövrdə ilahiyyat kitablarının yeri vardı, hətta onların yayılmasına rəvac verilirdi. Fəlsəfi əsərlər haqqında isə bunu demək olmaz, çünki onların yayılmasına münasibət birmənalı deyildi. “Mətlə-ül-Etiqad”ın müəllifi Füzuli ənənəvi yolla getməyib. O, teoloji problemləri müasirlərinin alışmadığı fəlsəfi nöqteyi-nəzərdən, amma hər halda yolverilən rakursdan işıqlandırıb, tez-tez Quran ayələrinə istinad edib, müsəlmanların müqəddəs kitabından sitatlar gətirib, bununla da bəhs etdiyi mütəfəkkirlərin bir sıra tezislərinin Quran ehkamlarına uyğun olduğunu əyani göstərib.

## Nəticə / *Conclusion*

Füzuli yaşadığı Orta əsr islam cəmiyyətindən asılı olmayaraq, istənilən fikrin açıq və aydın ifadə edilməsinin tərəfdarı idi, özü isə seyrçi kimi görünməyə çalışırdı. Bununla da öz auditoriyasına qarşıya çıxan ideoloji ixtilaflarda seçim etmək, öz fərdi mövqeyini müəyyənləşdirmək imkanı verirdi. İstər qəzəl olsun, istər qəsidə, istər poema olsun, istər nəsr süjetləri, yaxud da burada araşdırdığımız “Mətlə-ül-Etiqad” – dahi ustadın hər əsəri, ümumilikdə bütün yaradıcılığı rəssam Füzulinin sehrli fırçasından güc alan, mütəfəkkir Füzulinin mənalı, dərin, müdrik sözlərinin ecazkar boyaları ilə insanı ovsunlayan rəsm kətanıdır, sənət əsəridir.

## Ədəbiyyat / *References*


1. Füduli-əl-Bəğdadi. Mətlə’u-əl-‘ıtıqad va-əl-qasaid-əl-‘arabiyyə. – Bəğdad, dər-əl-kütüb va-əl-vasaıq, s.23 (ərəb dilində).
2. Азизова, Ф. Коллективные факторы посредничества. // Литературное посредничество как система в арабском халифате. – Баку: Элм, 2009, s.126-143, 304 s.
3. Алекперли, Ф. Эволюционные взгляды Насиреддина Туси. – Bakı: Örnək. 2000; А.Рзаев. Насиреддин Туси. Политико-правовые воззрения. – Bakı: Elm, 1983; М.Диноршоев. Философия Насириддина Туси. – Душанбе: Дониш, 1968, 157 с.; А.Боголюбов. Математики. Механики. Биографический справочник. – Киев: Наукова думка, 1983, 639 с. (rus dilində).

## Философский трактат Физули «Матла-уль-итикад»

**Фарида Азизова**
Доктор филологических наук
Институт литературы имени Низами Гянджеви НАНА
E-mail: faridazizova@gmail.com

**Резюме.** Физули, более известный как выдающийся поэт-художник, представлен в данной статье прежде всего как учёный; этап становления его как мыслителя-философа был сложным процессом, в ходе которого прослеживается широкое историческое пространство движения человеческой мысли и познания, вехи и ореинтиры которых обозначены в равной степени как творцами античной науки – (Фалес Милетский, Сократ, Пифагор, Аристотель и многие другие), так и учёными исламского Востока – ал-Фараби, Ибн-Сина, имам Газали, Насреддин Туси.
Автором исследуется отношение Физули к суждениям идеологов и богословов различных учений – маздаизма, зороастризма, огнепоклонничества, также рассматриваются воззрения представителей иудаизма, христианства, ислама с его многочисленными ответвлениями, вопросы сотворения мира, космогонии вселенной, духа и плоти, Творца и его творений. В работе освещаются философские и этические проблемы в наследии самого Физули, такие, как добро, зло, воля, предопределение, даются основы суфизма.
**Ключевые слова:** учёный, философ, мир, познание, вселенная, наследие